Xalq qəzeti.- 2020.- 5 noyabr.- S.10.

# Jerar Depardyedən Makrona etiraz: Nə üçün müsəlmanları təhqir edirsiniz?

**Məşhur fransız aktyoru Jerar Depardye Fransa Prezidenti Emmanuel Makrona öz etirazını bildirib. Nocomment.az bildirir ki, aktyor öz etirazını belə ifadə edib: "Lənət şeytana, niyə mən həmişə siyasətə qarışmalıyam? Fransız olaraq ölkəmizdə baş verənlərdən narahatam, müsəlmanlar nə ediblər ki, siz onları təhqir edirsiniz? Nə üçün siz onların dininə hörmətlə yanaşmırsınız, onların inancına qarışırsınız?**



Jerar Depardye müsəlmanlara qarşı edilən təhqirlərə görə şəxsən öz adından üzr istədiyini deyib: "Öz adımdan həmvətənlərimə və bütün müsəlman icmasına salam göndərirəm. Edilən təhqirlərə və nifrətə görə üzr istəyirəm və sülh içində yaşamaga dəvət edirəm".

Xatırladaq ki, oktyabrın 24-də Fransa Prezidenti Emmanuel Makron Məhəmməd peyğəmbərin (s.) karikaturalarının yayımlanması barədə mövqeyini bildirdikdən sonra bir çox müsəlman ölkələri Fransaya nota göndərib. Bəzi Yaxın Şərq ölkələri Fransa məhsullarını boykot edib.

***Hazırladı:***
***M.MÜKƏRRƏMOĞLU,***
***"Xalq qəzeti"***